2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Validə Kazımovanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 3 noyabr 2015-ci il tarixli 125 saylı müraciəti üzrə

**RƏYİ**

Bakı şəhəri 5 noyabr 2015-ci il

2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 54 saylı Şabran-Siyəzən seçki dairəsi üzrə seçicilər Məmmədov Yarbala Hicran oğlu və Əhmədov Əhəd Zabit oğlu 3 noyabr 2015-ci ildə Mərkəzi Seçki Komissiyasına müraciət edərək həmin seçki dairəsi üzrə səsvermə günü qanun pozuntularının olduğunu iddia etmiş, səsvermənin nəticələrini etibarsız hesab etməsini və yenidən seçki keçirilməsini xahiş etmişlər. Ərizəçilər müraciətlərində şikayətçi kimi 54 saylı Şabran-Siyəzən seçki dairəsi üzrə deputatlığa qeydə alınmış namizəd Qasımova Elza Nuru qızını göstərmişlər.

Mən, ekspert qrupunun üzvü Validə Kazımova həmin müraciəti araşdırarkən aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipi əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Araşdırma ilə əlaqədar müraciət etmiş Ə.Z.Əhmədov və Y.H.Məmmədovla əlaqə saxlanılmış, onlara əlavə sənədlər və materiallar təqdim etmək, araşdırmada və iclasda iştirak etmək hüququnun olması izah edilmişdir.

Şikayətçilərdən Y.H.Məmmədov müraciətin məzmunundan məlumatsız olduğunu, lakin qonşusu Ə.Z.Əhmədovun xahişi əsasında şəxsiyyət vəsiqəsini ona verdiyini bildirmişdir.

Ə.Z.Əhmədov isə şikayətin onun tərəfindən edildiyini, deputatlığa namizəd E.N.Qasımova ilə qohumluq münasibətlərində olduğunu, şikayətdə göstərdiyi halları təsdiq edən hər hansı bir sənəd və materialın olmadığını bildirmişdir.

Bundan başqa, araşdırma zamanı müəyyən edilmişdir ki, Y.H.Məmmədov və Ə.Z.Əhmədovun səsvermə günü səsvermə hüququndan başqa şikayətdə göstərdiyi halları görə biləcək hər hansı bir, o cümlədən müşahidəçi, səlahiyyətli nümayəndə, vəkil edilmiş şəxs və digər statusu olmamışdır.

Dairə seçki komissiyası tərəfindən təqdim edilmiş arayışdan görünür ki, səsvermə günü Y.H.Məmmədov, Ə.Z.Əhmədov və digər şəxslər tərəfindən hər hansı bir qanun pozuntusu barədə komissiyaya müraciət daxil olmamışdır.

Göründüyü kimi, Y.H.Məmmədov və Ə.Z.Əhmədovun 54 saylı Şabran-Siyəzən seçki dairəsi üzrə seçkilərin nəticələrinin ləğv edilməsi və yenidən seçki keçirilməsi barədə müraciətlərinin qanuni əsasları olmamış və araşdırma zamanı bu müraciətlərin təmin edilməsini zəruri edəcək hallar aşkar edilməmişdir.

Ona görə də müraciətlər əsassız olduğundan təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci, 113.1.1-ci, 147.1-ci, 148.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 54 saylı Şabran-Siyəzən seçki dairəsi üzrə seçicilər Məmmədov Yarbala Hicran oğlu və Əhmədov Əhəd Zabit oğlunun 3 noyabr 2015-ci il tarixli 125 saylı müraciətləri əsassız olduğundan təmin edilməsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Validə Kazımova